# «NEFTÇİ GEOLOQLARI CƏMİYYƏTİ» 30 İLLİYİNİ QEYD ETDİ



***29 sentyabr Azərbaycanda fəaliyyət göstərən «Neftçi Geoloqları Cəmiyyəti» İctimai Birliyinin yubileyinə həsr olunmuş tədbir təntənəli şəkildə qeyd olundu. Tədbirin açılışında «Neftçi Geoloqları Cəmiyyəti» İctimai Birliyinin idarə heyyətinin sədri, eyni zamanda Geoloji Cəmiyyətin qurucusu Dr. Akif Nərimanov qonaqları salamlayaraq, Cəmiyyət haqqında qısa məlumat verdi.***

«Neftçi Geoloqları Cəmiyyəti» İctimai Birliyi 2017-ci ildən «Neftçi Geoloqları Cəmiyyəti» İctimai birliyi kimi təsdiq edilmişdir. Geologiya elminin tərəqqisinə, bu sahədə qabaqcıl elmi məlumatın yayılması və mütəxəssislərin elmi səviyyələrinin artırılmasına kömək etmək məqsədilə birləşən geoloqların peşakar qeyri-kommersiya təşkilatıdır.

NGC İB təsis olunması, 993-ci ilin mart ayının 21-də 23 nəfərdən ibarət heyyətdə həyata kecirilmişdir. Bu ideyanı irəli sürmüş, AMOKO şirkətinin məsul işçisi cənab Jonn Dolsonun iştirakı ilə keçirilən iclasda rəsmi surətdə elan edilmişdir.

1994-cü ilin iyun ayında ABŞ-ın Kolorado ştatının Denver şəhərində, «House of Delegates» iclasında Azərbaycan Neftçi Geoloqları Cəmiyyətinin (ANGC) nümayəndələri rəsmi şəkildə iştirak etdilər. Elə həmin iclasda Azərbaycan Neftçi Geoloqları Cəmiyyəti Amerika Neftçi Geoloqları Assosiasiyasının rəsmi Azərbaycan Bölməsi kimi təsdiq edildi. Amerika Neftçi Geoloqları Assosiasiyası 1917-ci ildən fəaliyyət göstərir və dünyanın müxtəlif ölkələrində 40-dan artıq bölməsi mövcuddur.

1996-cı ilin dekabr ayında ANGC Avropa Yer elmləri və Mühəndisləri Assosiasiyası ilə birgə əməkdaşlıq haqqında saziş imzalamışdır. Bu sazişə əsasən Cəmiyyətimiz tərəfindən aparılan fəaliyyət, məşhur Avropa Assosiasiyası ilə sıx bağlıdır. Avropa standartlarında və EAGE-nin aparılan beynəlxalq tədbirlərində iştirak etmişdir.

1993-cü ildən Respublikada fəaliyyət göstərən qeyri-hökumət təşkilatı «Neftçi Geoloqları Cəmiyyəti» İctimai Birliyi Avropanın (EAGE), Amerikanın (AAPG) və dünyanın (SPE) nüfuzlu assosiasiyaları ilə birgə 10 peşəkar beynəlxalq konfrans, eləcə də elmin korifeyləri olan geoloqlar Əlieşrəf Əlizadə və Şəfaət Mehdiyevin ideyalarının inkişafina dair 12 Respublika səviyyəli elmi konfrans, tələbə və gənc tədqiqatçılar üçün 27 Respublika səviyyəli və Beynəlxalq konfrans, tələbələr və beynəlxalq konfransların iştirakçıları üçün 55 geoloji ekskursiya, 48 tematik seminar və tələbələr üçün 130-dan çox xüsusi mühazirə keçirmişdir.

NGC İB «Azərbaycan geoloqu» elmi bülletenini nəşr edir (artıq 25-nəşr var), dərslik və dərs materialları, lüğətlər, elmi və elmi-populyar monoqrafiyalar çap edir, beynəlxalq konfrans və sərgilərdə fəal iştirak edir, tələbələrin elmi-tədqiqat işlərini təşkil edib maliyyələşdirir, tələbələr üçün neft sənayesinin müxtəlif sahələrində işlərin spesifikliyinə aydınlıq gətirilməsinə dair fəaliyyəti təşkil edir.

Ötən dövr ərzində Geoloji Cəmiyyətinin 14 seçilmiş rəhbəri dəyişmişdir, amma təşkilat üzrə idarəçi rolu və Geoloqlar Cəmiyyətinin fəaliyyəti üzrə nəzarəti İdarə Heyyəti həyata keçirir.

Tədbir müddətində Xəzər Universitetinin rektoru İradə Xəlilova və Azərbaycan Dövlət Neft və Sənaye Univeristetinin Geoloji Kəşfiyyat Fakultəsinin dekanı Nemət Paşayev NGC İB-nə uğurlar arzulamış və Cəmiyyətin hər il ənənəvi olaraq keçirtdiyi tələbələr konfransının tələbələrin inkişafında rol oynadığını qeyd etmişlərdir.

Cəmiyyətin fəaliyyətinə hər zaman dəstək olan Şahmar Hüseynov, İradəXəlilova, Elçin Şirinov, Vazeh Əskərov, Əli Qurbanov və Samir Mollayev «Dost» adına layiq görülmüşdür. Cəmiyyətin sədri Elmir Qaragözov Cəmiyyətin Dostlarına öz nişanlarını və hədiyyələrini təqdim etmişdir.

Tədbir zamanı məşhur geoloq Baba Babazadə haqqında qısa təqdimat edilmişdir.

Baba Babazadə 1911-ci ildə Bakının Ramana kəndində anadan olmuşdur. 1923-1929-cu illərdə Sənaye Texnikumunda, sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Geoloji-kəşfiyyat fakültəsində oxumuş və 1934-cü ildə oranı mühəndis-geoloq ixtisası üzrə bitirmişdir.





Tədbirdə Amerika Netfçi Geoloqları Assosiasiyanın prezidenti (AAPG), Avropa Yer Elmləri Alimləri və Mühəndisləri Assosiasiyanın (EAGE) rəhbərliyi, Neft Mühəndisləri Cəmiyyətinin (SPE) prezidenti, SOCAR-ın birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə, akademik Akif Əlizadə, John Dolson, Dr.İbrahim Palaz, Greg Riley, Baltabek Muxanoviç tərəfindən «Neftçi Geoloqları Cəmiyyəti» İctimai Birliyinin 30 illik yubileyi ilə bağlı gələn təbrik məktubları və videolar nümayiş etdirilmişdir.

Ənənəvi olaraq Cəmiyyətin uzun müddətdir aktiv üzvlərini olan akademik Akif Əlizadə, Dr.İbrahim Palaz, ilk illərdən NGC İB-nin Amerika Neftçi Geoloqları Assosiasiyasına sıx bağlı çalışmasında böyük rol oynayan John Dolson, İdrisRzabəyov, Bağır Bağırov, Rəfiqə Hüseynzadə 15 sentyabr qərarı ilə «Fəxri üzv» adına layiq görülmüşdür. Tədbirdə iştirak edən SOCAR-ın vitse-prezidenti, fəlsəfə doktoru, elmlər namizədi Rəfiqə Hüseynzadəyə «Fəxri üzv» nişanı və hədiyyə təqdim edilmişdir.

B.Babazadə 1949-cu ildə geologiya-mineraloqiya üzrə fəlsəfə doktoru, 1962-ci ildə geologiya-mineralogiya üzrə elmlər doktoru elmi dərəcələrini almış, 1959-cu ildə isə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

B.Babazadə əmək fəaliyyətinə «Əzizbəyovneft» Neft-Mədən İdarəsində «Qala» neft yatağının tədqiqilə başlamış və 1936-cı ildə onun rəhbərliyi ilə qazılmış quyunun dərin qatlarından «Qala lay dəstəsi» açılmışdır. Bu kəşf əsasında neft verən quyuların həm quru və həm də dəniz yataqlarının böyük məhsuldarlığa malik ehtiyatlarla zəngin olduğu aşkar edilmişdir. 1942-ci ildə «Əzizbəyovneft»in baş geoloqu işlədiyi zaman Buzovna-Maştağa yatağının açılmasına nail olmuşdur.

Ənənəvi olaraq tədbir zamanı 30 illik yubiley şərəfinə tort kəsmə mərasimi keçirilmişdir. Və qonaqlar üçün lotoreya təşkil edilmiş qaliblərə hədiyyələri təqdim edilmişdir.

30 illik yubiley çərçivəsində məşhur rəssam Tahir Şıxaliyevin sərgisi keçirilmişdir.

***Firuzə CAVADOVA.***